> **B**öyüməkdə olan nəslin mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran çox mühüm vəzifədir.
>
> **Heydər ƏLİYEV,**
> *Azərbaycan xalqının Ümummilli Lideri*



# Şəxsiyyətyönümlü təhsil

## Təhsilli cəmiyyətə açılan pəncərə...

*Cəmiyyətdə bu və ya başqa bir şəxsin üstün xüsusiyyətlərindən danışılarkən digər fərqləndirici cəhətləri ilə yanaşı, onun bilik və məlumatlılıq səviyyəsi də xüsusi amil kimi diqqətə çatdırılır. Müşahidələr göstərir ki, həmin məziyyətlərə malik şəxslər, nədənsə, "təhsilli" deyil, əsasən, "savadlı" təyini ilə qiymətləndirilirlər.*

Azərbaycan dilinin izahlı lüğətində ("Şərq-Qərb",Bakı,2006) "savad" "yazıb-oxumağı bacarma" (halbuki hər cür yazıb-oxuma savad sayıla bilməz), "savadlı" "qrammatik cəhətdən çox düzgün yazan və danışan ("çox" sözü qeyri-müəyyənlik bildirdiyi üçün heç yerinə düşmür), hər hansı sahədə yaxşı biliyi ("yaxşı bilik" nə deməkdir?), məlumatı olan, bilikli" mənasında izah edilmişdir. "Təhsil" sözü isə "oxumaqla elm və bilik əldə etmə, oxumaq nəticəsində əldə edilmiş biliklərin məcmusu" kimi şərh olunmuşdur. Belə çıxır ki, "savad", "savadlı" məfhumları ilə "təhsil" məfhumu arasında məna və mahiyyət baxımından elədə ciddi bir fərq yoxdur. Halbuki "təhsil" əhatəliliyi baxımından daha geniş anlayışdır, yalnız biliklərin məcmusundan ibarət deyildir. "Təhsil haqqında" ölkəmizin Qanununa görə, "Təhsil - sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir". Bu məntiqlə təhsil prosesi bilik, bacarıq və vərdişlərin sistem formatında biri digərini tamamlamasına zəmin yaradır, təhsilalanların həyati bacarıqları (səriştələri) isə təbii olaraq idraki, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında inkişaf edir ki, bu da milli və bəşəri dəyərlərin getdikcə qavranılması vasitəsilə onlarda "şəxsiyyət" potensialının tədricən formalaşmasına gətirib çıxarır.

**Haşiyə.** Vaxtilə bu məsələlər müzakirə ediləndə bəziləri "məgər, əvvəlki təhsil sistemi şəxsiyyət yetişdirmirdi" deyərək qəbul etmək istəmirdilər ki, söhbət "görkəmlilər"dən getmir, belə insanlar istənilən mühit və şəraitdə hər zaman olub, bu gün də var, sabah da olacaqdır. Məsələnin mahiyyəti isə ondan ibarətdir ki, təhsilə cəlb edilmiş uşaqların hər biri zəruri sayılan əqli, mənəvi, mədəni keyfiyyətləri əxz etməklə gələcəkdə təhsil səviyyəsindən və hansı peşəyə yiyələnməsindən asılı olmayaraq, cəmiyyətdə, zamanın tələbləri ilə ayaqlaşan yetkin insan, şəxsiyyət olaraq qəbul edilsin.

Təlim-tərbiyə prosesində təhsilalanların, hər şeydən əvvəl, şəxsiyyət əyarlı vətəndaş kimi yetişdirilməsi rəsmi dövlət tələbi olmaqla bərabər, həm də təhsili məhz dəyər daşıyıcısı səviyyəsinə yüksəldən göstərici kimi meydana çıxır. Bu mənada mütərəqqi dünya təcrübəsinə istinadən məktəbəqədər və ümumi təhsilin məzmununun nəticəyö-nümlülük, tələbyönümlülük prinspləri ilə yanaşı, həm də şəxsiyyətyönümlülük prinsipi üzərində qurulması qənaətinə gəlinməsi müasir zamanın tələbi idi. Azərbaycanın da 1992-ci ildə qoşulduğu Uşaq Hüquqları Konvensiyasında hər bir uşağın cəmiyyətdə dəyərli və bərabərhüquqlu şəxs olmasının təsbit edilməsi, həmçinin təhsil prosesində uşağın obyekt deyil, pedaqoji əməkdaşlıq funksiyasını yerinə yetirən subyekt statusunda nəzərə alınması şəxsiyyətyönümlülük prinsipinin təhsilin məzmununda aparıcı mövqe tutmasına əhəmiyyətli təsir göstərmişdir.

Əslində, didaktik xarakterli nəticəyönümlülük, tələbyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri mahiyyətcə şəxsiyyətyönümlü təhsilin özəyini təşkil edir. Belə ki, əldə olunası təlim nailiyyətlərinin nəticələr formasında əvvəlcədən dəqiqləşdirilməsi; təhsil sahəsi üzrə fəaliyyətlərin bilavasitə uşaq və şagirdlərin mənafeyinin qorunmasına və inkişafına yönəldilməsi; təhsil siyasətinin təhsilalanların tələb və ehtiyaclarını nəzərə almaqla müəyyənləşdirilməsi; onlarda inteqrativ düşüncə tərzinin aşılanması məhz şəxsiyyətin formalaşmasına ünvanlanmış təhsilin ideya dayaqlarıdır desək, səhv etmərik.

**Haşiyə.** Azərbaycan dilinin izahlı lüğətində "şəxsiyyət" sözü mahiyyət etibarilə "öz xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi baxımından bir şəxsə aid olub onun fəaliyyətini təyin edən xüsusiyyətlərin məcmusu" anlamında izah olunmuşdur. Lakin məntiqlə yanaşsaq, sadalanan keyfiyyətlərə görə (xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi), bu və ya digər şəxs cəmiyyətdə mənfi mənada da səciyyələndirilə bilər. Halbuki "şəxsiyyət", "şəxsiyyətli" ifadələri insanın düşüncəsində bir əzəmət, qüdrət, müdriklik, ağsaqqallıq, mənəvi ucalıq hissiyyatı yaradır, gözlərimizin önündə yaradıcı zəkaya, böyük istedada, yenilməz qətiyyət və iradəyə malik, millətini millətlər içində tanıtmağa qadir insanlar canlanır.

Bununla belə, yüksək amallara və mənəviyyata, kamilliyə gedən yol zaman keçdikcə dərinləşən sadə şəxsi keyfiyyətlərdən keçir. Bunlar bütövlükdə hər bir fərdə müyəssər ola biləcək əqli, fiziki, mənəvi yetkinliyi şərtləndirən əlamət və xüsusiyyətlərdir. Onlar sosial şəraitdən, təlim-tərbiyə mühitindən asılı olaraq, hələ uşaqlıq dövründən etibarən hər bir şəxsin xarakterinin və şəxsi keyfiyyətlərinin davamlı surətdə təşəkkülü və inkişafında həlledici rol oynayır.

*Sual oluna bilər:* onlar hansı dəyərlərdir ki, həyati bacarıqlar əsasında yaranıb davamlı inkişaf edərək fərdin şəxsiyyət kimi formalaşmasında üstün mövqeyə malikdirlər? Zənnimcə, həmin dəyərləri, təxminən, belə qruplaşdırmaq mümkündür: vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik, milli iftixar hissi, şər qüvvələrə qarşı barışmazlıq; məsuliyyətlilik və cavabdehlik, əməkdaşlıq, təşkilatçılıq, idarəçilik; tənqidi və qeyri-standart düşüncə tərzi, tədqiqatçılıq; təşəbbüskarlıq, müstəqil öyrənmə, sərbəst rəy və münasibət bildirmə, nitq mədəniyyəti, estetik və fiziki mədəniyyət, məişət mədəniyyəti, liderlik, sağlam həyat tərzi; İKT savadlılığı, texnoloji dünyagörüşü və s. Mənimsənildiyi halda, həmin dəyərlər, bir növ, şəxsin "keyfiyyət nişanı"na çevrilir, məhz həmin insanlar müstəqil həyatda tələbyönlü olmaqla cəmiyyətin tərəqqisinə, onun mənəvi saflığının, siyasi tarazlığının, humanist dayaqlarının qorunmasına layiqli töhfələr verə bilirlər.

Şəxsiyyətin formalaşması, təbii ki, davamlı və qırılmaz bir prosesdir. Bu, insanın ətraf aləmlə tanışlığından, gördüklərinin dərkindən başlanmaqla onun əqli və mənəvi yüksəlişinə qədər keçilən uzun bir yoldur. Heç şübhəsiz, uşaqlara təlqin edilən şəxsiyyətyönlü xüsusiyyətlərin öz başlanğıcını ailədən, ailə mühitindən götürməsi birmənalıdır və bu işin uğurlu gedişində ailələrin sosial statusu həlledici rol oynayır. Lakin yeri gəlmişkən, digər bir maraqlı yanaşmada diqqətə çatdırılır ki, "Dünyaya gələn körpənin beyninin "ağ lövhə"yə bənzəməsini iddia edənlərin nə dərəcədə yanlışlığa yol verdiklərini müzakirə etmək istəməzdim. Lakin



**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

bətnində "müqəddəs yük" (N.Hikmət) gəzdirən ananın qidalanma və gigiyenik təhlükəsizliyindən tutmuş ürəyi onunla bir döyünən gələcək övladı haqqında məhrəm düşüncələrinə, nəvazişli oxşamalarına, onunla özünəməxsus dillə mübhəm söhbətlərinə kimi nə varsa, körpəyə təsirsiz ötüşdüyünə inanmaq çox çətindir" (Misir Mərdanov, "Azərbaycan təhsili yeni inkişaf mərhələsində", Bakı, "Çaşıoğlu", 2009, səh. 25).

Belə nəticəyə gəlmək olar ki, şüuraltı aləmin möcüzəsi kimi, hələ işıqlı dünyaya qədəm basmamış körpə varlıqda insani hisslərin oyadılmasını onun gələcəkdə iç dünyasının, xarakterinin, şəxsi keyfiyyətlərinin formalaşmasında ilkin mərhələ hesab etmək mümkündür.

Lakin problemə tam real mövqedən yanaşsaq, uşağın dərketmə qabiliyyəti yarandıqdan sonra onun dünyagörüşündə nəcib duyğuların, etik davranış əlamətlərinin, öz hərəkətlərini idarə etməklə bağlı bacarıqların, eləcə də məsuliyyət hissi anlayışının əmələ gəlməsi ailədəki sağlam ab-havadan, bilavasitə valideynlərin uşağa həssas və diqqətli münasibətindən çox asılıdır. Dahi şairimiz M.Ə.Sabirin ibrətamiz sözləri ilə desək:

*Həqiqi validənin ən şərəfli bir bəzəyi -*
*Ədəbli, uslu çocukdur, təcəmmülat deyil.*

Müşahidələr həmçinin göstərir ki, valideynlərin düzgün, məqsədyönlü tərbiyə üsulları tətbiq etməsi, eləcə də uşaqları xeyirlə şərin üzləşdiyi, qəhrəmanların haqq yolunda mübarizəsinin təsvir edildiyi sehrli nağıllar dünyasına, əsrarəngiz mifik aləmə virtual "səyahət"ə aparmaları və onlara nəticə olaraq xeyrin şər qüvvələr, haqq-ədalətin haqsızlıq üzərində həmişə qalib olacağı fikrinin aşılanması sayəsində ədalətli, cəsarətli, məğrur böyüyən, habelə erkən yaşdan sadə formada da olsa, məişət etikasına, gigiyenik mədəniyyət elementlərinə, davranış etiketlərinə əməl edən uşaqlarda şəxsiyyət amilini büruzə verən cəhətlər daha tez nəzərə çarpır. Odur ki, şəxsiyyətyönümlülük uşaqların tərbiyəolunma sistemində ən vacib həlqədir, desək, yanılmarıq.

Uşaqlarda ilkin həyati bacarıqlar ailələrdə (təbii ki, normal mənəvi-psixoloji atmosferə malik) təşəkkül tapsa da, onların gələcək inkişaf perspektivlərinin başlanğıcı, heç şübhəsiz, məktəbəqədər tərbiyə müəssisələrində (əlbəttə ki, peşəkar səviyyəli pedaqoji heyət olduğu halda) qoyulur. Təhsilin bu pilləsində fəaliyyətlər keyfiyyətli qurularsa, uşaqların sosiallaşma, ünsiyyət, mənəvi keyfiyyətlərinin və idraki xüsusiyyətlərinin formalaşması üzrə əldə etdikləri bacarıqlar məhsuldar rüşeymlər kimi sonrakı mərhələlərdə etibarlı dayaq rolu oynamaqla uşaqlarda şəxsiyyətyönlü əlamətlərin inkişafını daha da sürətləndirə bilər. Əvvəlki mərhələdə həmin keyfiyyətlərin uşaqlara necə və hansı səviyyədə aşılanmasını əyani olaraq növbəti təhsil dövründə müşahidə edib dəyərləndirmək mümkündür.

Şübhəsiz, ailələrlə və məktəbəqədər təhsillə müqayisədə ümumi təhsil şəxsiyyətin formalaşmasında daha geniş təsir imkanlarına və münbit şəraitə malikdir. Şəxsiyyətyönümlü təhsilin həyata keçirilməsində ümumi təhsilin məzmununun müasir dövrün tələblərini qarşılaması, şagirdlər üçün əlçatan və maraqlı olması, praktik əhəmiyyətliliyi, idraki, mənəvi-əxlaqi inkişafa hansı səviyyədə xidmət göstərməsi diqqət yetiriləsi vacib məsələlərdəndir. Hazırki zamanda ümumi təhsilin hər səviyyəsində tədris edilən fənlərin vəzifə və öhdəlikləri şagirdlərin zəruri sayılan minimum nəzəri bilik və məlumatlara yiyələnməsinə yönəlməklə bərabər, bilavasitə onların milli-mənəvi simasını, intellekt və mədəni səviyyəsini nəzərə çarpdıran xüsusiyyətlərin təşəkkülü ilə bağlı bacarıq və səriştələrin mənimsədilməsinə fokuslanmışdır. Həmin bacarıq və səriştələr mahiyyət və təyinatına görə, müəyyən mənada fərqlənib təsnif edilsələr də, onların istənilən bir fərdin timsalında şəxsiyyəti səciyyələndirən dəyərlərə çevrilməsi, əslində, bütün fənlərin, bir növ "əməkdaşlığı"nın nəticəsi olmalıdır. Bu fənlərin hər biri öz tədris sferalarına görə, müəyyən bacarıq və səriştələrin (məsələn, Azərbaycan dili-yazılı və şifahi nitq mədəniyyəti; ədəbiyyat-mənəvi yetkinlik, təhliletmə, təsviretmə, müqayisəetmə; riyaziyyat-qeyri-standart, tənqidi düşüncə tərzi, modelləşmə, təfəkkür çevikliyi; təbiət fənləri-elmi dünyagörüşünün yaranması, ətraf aləmi dərketmə; ictimai fənlər-milli iftixar hissi, ictimai şüurun, vətəndaşlıq mövqeyinin formalaşması) təşəkkülündə üstün mövqeyə malik olsalar da, fikrimizcə, vətənpərvərlik, məsuliyyət və cavabdehlik hissi, məqsədyönlülük, birgə fəaliyyət, planlaşdırma, idarəçilik, yaradıcı düşüncə tərzi, tədqiqatçılıq, təşkilatçılıq, müstəqil öyrənmə, sərbəst fikir yürütmə, tolerantlıq, özünəinam, mədəni davranış, milli-mənəvi dəyərlərə bağlılıq və s. xüsusiyyətlərin aşılan-masında, heç şübhəsiz, bütün fənlər öz imkanları daxilində iştirak etməlidir. Bu prosesdə müəllimin peşəkarlıq səviyyəsi və metodik ustalığı ciddi önəm daşıyır. Başqa sözlə, öz fənninin tədrisi ilə yanaşı, şagirdlərin mənəvi-psixoloji durumları, davranışları, maraq dairələri, digərlərinə münasibətləri, istedadlarını büruzə verən amillər və s. cəhətlər hər bir müəllimin pedaqoji müşahidəsi altında olmalı, lazım gəldiyi hallarda müəyyən rəy və mülahizələr bildirilməlidir.

Bütün bunlarla bərabər, məktəblərdə həyata keçirilən məktəbdənkənar və sinifdənxaric tədbirlər də (layihələr, fənn gecələri, müsabiqələr, ədəbi-bədii tədbirlər, səhərciklər, bilik və idman yarışları, intellektual oyunlar, ekskursiyalar, bədii əsərlərin, elmi-kütləvi ədəbiyyat nümunələrinin müzakirəsi, diskussiyalar və s.), həmçinin bütün bu fəaliyyətlərə məktəblərin rəhbərliyinin peşəkar dəstəyi və təşkilatçılığı şagirdlərdə şəxsiyyətyönlü keyfiyyətlərin təşəkkülündə xüsusi rol oynayır.

Sirr deyil ki, hər hansı fərdi şəxsiyyət kimi büruzə verən başlıca əlamətlərdən biri də onun mənəvi dəyərlərə hansı səviyyədə mənsub olmasıdır. Ulu Öndər Heydər Əliyev bu barədə danışarkən belə bir konseptual müddəa irəli sürmüşdü ki, "İslam dini bizim müqəddəs dinimizdir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir... Gənclərimizin islam dinini mənimsəməsi üçün lazımi tədbirlər görülməlidir".

Həqiqətən də, insanları paklığa, düzlüyə, sədaqətə, halallığa və qəhrəmanlığa səsləyən dini dəyərlərimizi hələ kiçik yaşlarından uşaqlara mənimsətmədən, onların qəlb dünyasını bu dəyərlərlə saflaşdırıb büllurlaşdırmadan əsl vətəndaş, əsl şəxsiyyət yetişdirə bilmərik. Bu mənada, xüsusilə, humanitar istiqamətli dərsliklərdəki mətnlərin məzmununun necə mühüm əhəmiyyət daşımasını bir daha diqqətə çatdırmaq istərdik.

Fikirlərimizi yekunlaşdırsaq, nəticə etibarilə nələri deyə bilərik?! Məqsədimiz gələcəyin tələbyönümlü, rəqabətqabiliyyətli, dövrün çağırışlarına uyğun bacarıqlara yiyələnmiş, cəmiyyətdə "artıq adam"a deyil, onun məhsuldar üzvünə çevrilən, ən əsası, vətəndaş təfəkkürlü, milli təəssübkeşlik hisslərinə malik, mənəviyyatca möhkəm insanları - şəxsiyyətləri yetişdirməkdirsə, məktəb həyatının şagirdlər üçün daha maraqlı olması, təlimin məzmununun inkişafyönümlülüyü, hamıya əlçatanlığı və praktikliyi, dərsliklərin standartları ifadə etməyən lüzumsuz materiallardan, akademik yazı üslubundan xilas olunması və onların oxunabilirlik səviyyəsinin yüksəldilməsi, təlimin üsul və metodlarının həyatiliyi, bütün məktəbdaxili qiymətləndirmə növlərinin məqsədyönlü tətbiqi, "heç bir uşağı diqqətdən qaçırmayaq", "istedadsız uşaq yoxdur" devizlərinin şüarçılıqdan əməli işə keçirilməsi, uşaqların nitq, mütaliə və təşkilatçılıq mədəniyyətinin inkişafı, yaradıcılıq meyillərinin təşviqi və motivasiyası, müəllim peşəkarlığının təmin olunması, "müəllim-şagird", "müəllim-valideyn", "məktəb-valideyn" əlaqələrinin işgüzar pedaqoji əməkdaşlığa çevrilməsi, valideynlərin maarifləndirilməsi, məktəb rəhbərlərinin idarəçilik qabiliyyətlərinin yüksəldilməsi istiqamətində fəaliyyətləri daha artıq səviyyədə genişləndirməli və getdikcə təkmilləşdirməliyik. Məşhur rus ədibi L.N.Tolstoyun təbirincə desək, "Təhsil işi incəsənətdir. Onun sonu və tamamlanması mümkün deyil, inkişafı və təkmilləşdirilməsi isə sonsuzdur".

**P.S.** Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun fikridir ki, "Məncə, əbədi və dəyişkən həyatda üz-üzə gələn zəhmət adamının nə dərəcədə şəxsiyyət olması, mənəvi aləminin nə dərəcədə zənginliyi dövrünün əsas xüsusiyyətlərinin onda nə dərəcədə cəmləşdiyi ilə ölçülür". Həmin dəyərli mülahizəyə məntiqlə yanaşsaq, əslində, yaşanılan dövrə aid xüsusiyyətlərin həmin dövrdə təhsilə olan münasibətdən qaynaqlanması birmənalı qəbul edilməlidir. Təhsili indikator olaraq götürsək, cəmiyyətdə onun hansı səviyyədə dəyərləndirilməsi inkişaf və tərəqqinin nə dərəcədə dəstəklənməsinin təzahürü kimi meydana çıxır. Bu mənada insanların təhsillilik səviyyəsi cəmiyyətin yüksəlişini şərtləndirən hərəkətverici qüvvə sayılmaqla bərabər, həm də onun ideya-mənəvi simasını əks etdirən başlıca göstərici olaraq qəbul olunur. Beləliklə, yalnız dövrə uyğun bilikli insanların yetişdirilməsini diqqət mərkəzinə çəkən cəmiyyət deyil, bununla yanaşı, əsas etibarilə "Vətən sevgisi imandandır" fəlsəfəsi ilə böyüyən zəngin mənəviyyatlı, yüksək mədəni səviyyəli, sağlam dünyagörüşlü, milli-mənəvi dəyərlərə sadiq şəxslərin formalaşdırılmasını milli ideya səviyyəsinə yüksəldən təhsil sisteminə malik cəmiyyət məhz təhsilli cəmiyyət adlanır.